

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 240 (23.402)

*20 dekabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə giriş nitqi söyləyib.

Pambıqçılıq sahəsində görülmüş işlərə yekun vurulan müşavirədə ölkə başçısı 2019-cu ildə bu sahədə rekord göstərici əldə olunduğunu, 294 min ton pambıq yığıldığını və hər hektarda məhsuldarlığın orta hesabla 29,4 sentner təşkil etdiyini bildirib. Vurğulanıb ki, bu, doğrudan da, çox böyük göstəricidir və son illər ərzində pambıqçılıqda inkişafla bağlı atılmış bütün addımlar öz səmərəsini verməkdədir. Ölkə başçısı dövlət dəstəyi olmadan pambıqçılığın inkişaf etdirilə bilmədiyindən, Azərbaycanda pambıqçılığın dirçəldilməsindən, bunun çox gəlirli sahəyə çevrilməsindən, pambıqçılıqla məşğul olan rayonlarda məşğulluq problemlərinin həllindən danışıb.

Dövlətimizin başçısı müşavirəyə yekun vurub. Diqqətə çatdırılıb ki, bütövlükdə, bu işlərin mütəşəkkil şəkildə həyata keçirilməsi üçün Prezident Administrasiyası, Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanları və tədarükçü şirkətlər birlikdə fəaliyyət planı tərtib etməlidirlər. 2020-ci il üçün çox geniş və müfəssəl yol xəritəsi tərtib edilib icra olunmalıdır. Belə olan halda pambıqçılıq Azərbaycanda daha sürətlə inkişaf edəcək, həm bu sahədə məşğul olan insanlara, həm də ki, dövlətə xeyir gətirəcəkdir.



## Duzdağda yeni şaxta istifadəyə veriləcək





Dekabrın 19-da Duzdağda yeni şaxta açılması münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev məlumat vermişdir ki, ərazidə duz ehtiyatlarının miqdarı, keyfiyyəti və tərkibi dəqiq öyrənilmiş, laboratoriya analizləri aparılmış və duzun standartların tələblərinə uyğunluğu müəyyənləşdirilmişdir. Hazırda yeni şaxtanın əhatə etdiyi ərazidə 15 milyon ton duz ehtiyatı vardır. Yeni açılan şaxtada texnoloji rejimə nəzarət ediləcək, havalandırma sistemi qurulacaq, müəyyən olunmuş duz layına qədər 390 metr uzunluğunda tunel çəkiləcəkdir.

Naxçıvan duzunun istehsal və satış həcmini artırmaq məqsədilə yeni müəssisə də qurulacaqdır. Müasir avadanlıqlarla təmin ediləcək müəssisədə istehsal prosesi avtomatlaşdırılacaq və illik istehsal gücü 15 min ton olacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Yeni duz şaxtasının açılması muxtar respublikanın həyatında əlamətdar hadisədir. Çünki tarixən Naxçıvan duzuna böyük tələbat olmuş, dünyanın müxtəlif ölkələrinə göndərilmiş, tədavül vasitəsi kimi istifadə edilmişdir. Naxçıvan Xanlığı dövründə Duzdağda açıq üsulla duz çıxarılmışdır. Sənaye üsulu ilə duzun istehsalına XX əsrin əvvəllərində başlanılmışdır. Sovetlər Birliyi dövründə Duzdağda açılmış şaxtaların birinin istismar müddəti başa çatmış, digərində isə Duzdağ Fizioterapiya Mərkəzi yaradılmışdır. Tələbatın artması yeni duz şaxtasının açılmasını zərurətə çevirmişdir.

Ali Məclisin Sədri demişdir: Duz Naxçıvanın brendidir. Yeni şaxtanın açılması bu baxımdan çox əhəmiyyətlidir. Şaxta ilə yanaşı, ərazidə yeni duz istehsalı müəssisəsi də qurulacaq, Naxçıvan duzu daha keyfiyyətli formada istehsal ediləcəkdir. Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri çoxdur. Bu gün qarşıda duran əsas vəzifə bu sərvətlərdən səmərəli istifadə etməkdir. Hazırda Darıdağ arsenli su müalicə mərkəzi və yeni Badamlı Mineral Sular Zavodu tikilir. Bu gün isə duz şaxtasının təməli qoyulur. Bütün bunlar muxtar respublikanın inkişafına xidmət edir. Yeni şaxtada işlər yerli şirkət tərəfindən həyata keçiriləcək, yüzlərlə iş yeri açılacaq, süfrələrimizin bəzəyi olan Naxçıvan duzunun şöhrəti qorunub saxlanılacaqdır.

Ali Məclisin Sədri əlamətdar hadisə münasibətilə muxtar respublika əhalisini təbrik etmişdir.

İqtisadiyyat naziri Tapdıq Əliyev yaradılan şəraitə və göstərilən diqqətə görə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri Duzdağ ərazisinin xəritələşdirilməsi, istismar olunmayan şaxtaların Fövqəladə Hallar Nazirliyinə təhvil verilməsi, təhlükəsizlik tədbirlərinə diqqət yetirilməsi, yeni şaxtada aşkar olunacaq elmi və mədəni əhəmiyyətə malik süxurların Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinə təqdim olunması, eləcə də ərazidə gil istehsalı müəssisəsinin də yaradılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Dekabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmak ilə görüşmüşdür.

Ali Məclisin Sədri Naxçıvanda keçirilən "Dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında özəl sektorun rolunun artırılması" mövzusundakı tədbirə görə qonağa təşəkkürünü bildirmişdir. Azərbaycan ilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasındakı əlaqələrə və həyata keçirilən layihələrə diqqəti çəkən Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası barədə ətraflı məlumat vermiş, ərzaq təhlükəsizliyinin təmin olunması və kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərdən danışmışdır. Qeyd olunmuşdur ki, ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə ilk dəfə muxtar respublikada özəlləşdirmə ilə bağlı qərar qəbul etmiş, ötən dövrdə bu proses uğurla başa çatdırılmışdır.



Muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyətindən, eləcə də artan ixrac potensialından danışan Ali Məclisin Sədri kənd təsərrüfatında maarifləndirmənin və mütərəqqi metodların tətbiqinin əhəmiyyətini vurğulamış, keçirilən tədbirin bu baxımdan faydalı olacağına əminliyini ifadə etmişdir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev Naxçıvanda özəl sektorun inkişafının və sahibkarların fəaliyyətinə verilən dəstəyin, bunun tərkib hissəsi kimi aqrar sahəyə göstərilən diqqətin nümunə olduğunu bildirmişdir.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmak göstərilən diqqətə görə minnətdarlıq etmişdir. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahəsində böyük potensialın olduğunu bildirən qonaq təmsil etdiyi təşkilatın muxtar respublika ilə əməkdaşlığa mühüm önəm verdiyini vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Özəl sektorun investisiya fəallığının təmin edilməsi ilə bağlı seminar keçirilib

*Dekabrın 19-da Naxçıvan Biznes Mərkəzində "Dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında özəl sektorun rolunun artırılması" mövzusunda regional seminar keçirilib.*

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Tədbirin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının İdarə Heyətinin sədri Vüqar Abbasov iştirakçıları salamlayaraq muxtar respublikada son illərdə aparılan quruculuq tədbirlərinin, iqtisadi və sosial sahədəki irəliləyişlərin Naxçıvanı Azərbaycanın ən qabaqcıl, inkişaf etmiş bir diyara çevirdiyini bildirib. Vurğulanıb ki, muxtar respublikada bazar rəqabəti şərtlərində sahibkarlara dəstək verilməsi, işgüzar fəallığın artırılması məqsədilə vahid konfederasiya ətrafında onların könüllü ittifaqının yaradılması qarşıya qoyulmuş məqsədlər baxımından əhəmiyyətlidir.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası bu istiqamətdə çalışaraq sahibkarların uğurlu biznes fəaliyyətinə öz dəstəyini göstərir. Hazırda konfederasiya 33 üzvü özündə birləşdirir.

Diqqətə çatdırılıb ki, sahibkarlığın inkişafı məqsədilə muxtar respublikada fəaliyyət göstərən bank strukturları və kredit təşkilatları tərəfindən sahibkarlara 2019-cu ilin ötən dövrü ərzində verilmiş kreditlərin həcmi 100 milyon manatı ötüb. Məhz dövlət və sahibkar əlaqələrinin dərinləşməsi ilə son 24 il ərzində muxtar respublikada yüksək texnologiyalar əsasında çoxsaylı istehsal və xidmət sahələri yaradılıb. Ötən dövr ərzində xarici dövlətlərin rəsmi və işgüzar dairələrinin iştirakı ilə ardıcıl və ənənəvi biznes forumlar keçirilməsi də diqqətdə saxlanılıb. Sahibkarlar Konfederasiyası da fəaliyyətini sahibkarlığın inkişafı istiqamətində qurmağa çalışır.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxışında bildirib ki, blokada şəraitinin çətinliklərinə baxmayaraq, 1995-ci ildən başlayaraq muxtar respublikada aparılan məqsədyönlü siyasət nəticəsində iqtisadi və sosial sahədə makroiqtisadi göstəricilər hər il artan templə davam edib.

"Sənaye sahəsində həyata keçirilən islahatların nəticəsidir ki, 1990-cı ildə muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2019-cu ildə bu müəssisələrin sayı 8 dəfə artaraq 450-yə çatıb", – deyən nazir vurğulayıb ki, muxtar respublikada 383 növdə məhsulun istehsal olunması, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi məhz iqtisadiyyatın diversifikasiyası, sahibkarlığa göstərilən dövlət qayğısı və yeni iqtisadi layihələrin dəstəklənməsi sayəsində mümkün olub. Qeyd edilib ki, son illər güzəştli dövlət maliyyə dəstəyi ilə müasir texnologiyalara əsaslanan 267 heyvandarlıq, 86 quşçuluq, 14 balıqçılıq, 124 arıçılıq, 67 bağçılıq, 10 üzümçülük təsərrüfatı, ümumi tutumu 16 min 65 ton olan 38 soyuducu anbar, sahəsi 131 min 162 kvadratmetr olan 23 istixana kompleksi və digər müasir müəssisələr yaradılıb. Bütün bunlar istehlak bazarının sabitləşməsində, ixrac potensialının artmasında, idxaldan asılılığın azalmasında, ümumilikdə, ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayıb.

Vurğulanıb ki, 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi, Ali Məclis Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın təsdiq olunması ailə təsərrüfatlarının fəaliyyəti üçün geniş imkanlar açıb. Hər il muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində və rayon mərkəzlərində "Ailə təsərrüfatı məhsulları" festivalının təşkili bu sahəyə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Artıq muxtar respublikanın ixtisaslaşmış ailə təsərrüfatları tərəfindən istehsal olunan təbii və keyfiyyətli məhsullara Bakı şəhəri və respublikamızın digər bölgələrində böyük tələbat yaranıb. Bu gün Bakı və Gəncə şəhərlərində də Naxçıvan məhsullarının satıldığı mağazalar fəaliyyət göstərir.

Tapdıq Əliyev özəl sektora dövlət dəstəyinin gücləndirilməsi, iqtisadi və maliyyə resurslarına çıxış imkanlarının genişlənməsi məqsədilə 2019-cu ilin ötən dövrü ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 100-dən çox layihənin maliyyələşdirilməsinin sahibkarlıq subyektlərinin inkişafını stimullaşdırdığını diqqətə çatdırıb.

Qeyd olunub ki, muxtar respublikada ixrac təşviqinin ödənilməsi ixracyönümlü məhsulların istehsalının dəstəklənməsinə, investisiyaların cəlb edilməsinin stimullaşdırılmasına, yeni iş yerlərinin açılmasına imkan yaradıb. Muxtar respublikada ərzaq təhlükəsizliyinin və istehsal olunan məhsulların xarici bazarlara sərbəst çıxışının təmin edilməsi məqsədilə keyfiyyətə nəzarət sisteminin təkmilləşdirilməsi diqqətdə saxlanılıb, beynəlxalq akkreditasiyadan keçmiş "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası yaradılıb.

Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri Bəhruz Bayramov çıxışında muxtar respublikada kənd təsərrüfatının inkişafı üçün həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb.

Diqqətə çatdırılıb ki, görülən işlərin nəticəsində 2019-cu ilin yanvar-noyabr ayları ərzində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 434 milyon 366 min 800 manat olub. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çoxdur. 519,4 hektarı 2019-cu ildə olmaqla, 4479 hektar sahədə qapalı suvarma sistemlərinin istifadəyə verilməsi əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına və məhsul bolluğunun yaradılmasına imkan verib.

Vurğulanıb ki, 2019-cu ilin məhsulu üçün muxtar respublikada 33 min 308 hektar sahədə taxıl əkini aparılıb. Ötən illə müqayisədə taxıl əkini sahəsi 825 hektar artıb. Görülən tədbirlər artıq bir neçə ildir ki, əhalinin əksər kənd təsərrüfatı məhsullarına olan tələbatının daxili istehsal hesabına ödənilməsini təmin edib.

Nazir diqqətə çatdırıb ki, muxtar respublikada hazırda 1000-dən çox ixtisaslaşmış kiçik və böyük ailə təsərrüfatları vardır. Verilən kreditlərdən səmərəli istifadə nəticəsində bu təsərrüfatlarda bütün növlər üzrə istehsal və məhsuldarlıq göstəriciləri artıb.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev çıxışında bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın bütün regionlarında sahibkarlığın inkişafı, xüsusən də dayanıqlı iqtisadiyyatın qurulması istiqamətində mühüm addımlar atılır. Bu tədbirlərin davamı olaraq yaradılan Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının qarşısına qoyulan məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə edən bir sıra önəmli tədbirləri əhatə edir.

Vurğulanıb ki, həyata keçirilən tədbirlər nəticəsində, bu il iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 3,5 faiz artıb. Əlavə dəyərin 6,2 faizi məhz kənd təsərrüfatının payına düşür. Kənd təsərrüfatının inkişaf etdirilməsində sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı dövlət başçısının ən çox önəm verdiyi məsələlərdəndir. Ölkədə fermerlər üçün bir sıra güzəştlərin müəyyən edilməsi, onların torpaq vergisi istisna olmaqla, digər bütün vergilərdən azad edilməsi, güzəştli şərtlərlə kreditlərin və kənd təsərrüfatı texnikalarının lizinqə verilməsi, ayrı-ayrı sahələr üzrə dövlət tərəfindən subsidiyaların ayrılması kənd təsərrüfatının inkişafına və bu sahədə məşğulluğun artmasına geniş imkanlar yaradıb.

Məmməd Musayev diqqətə çatdırıb ki, ölkədə ümumi daxili məhsul istehsalının çox hissəsinin özəl sektorun payına düşməsi onu göstərir ki, artıq sahibkarlar iqtisadi inkişaf üçün lokomotiv rolunu oynamaqdadırlar.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmak seminarın Naxçıvanda keçirilməsinə göstərilən dəstəyə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib. Vurğulanıb ki, Azərbaycanın müstəqillik əldə etdikdən sonra qida təhlükəsizliyinin təmin olunması istiqamətində əldə etdiyi nailiyyətlər təqdirəlayiqdir. Burada kənd təsərrüfatının inkişafına dövlət səviyyəsində böyük dəstək göstərilir. Mələk Çakmak kənd təsərrüfatı istehsalını şaxələndirmək istiqamətində Azərbaycan hökumətinin səylərinin yüksək qiymətləndirildiyini bildirib.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan "Aqrar Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Leyla Məmmədova çıxışında rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə ətraflı məlumat verib. Həmin qurumla əməkdaşlıq etmək istəyən sahibkarlara hər zaman köməklik göstərməyə hazır olduqlarını bildirib.

Sonra seminar müxtəlif mövzular üzrə sessiyalar ilə öz işini davam etdirib.

Seminar iştirakçıları "Şərq qapısı" qəzetinə müsahibələrində tədbirin əhəmiyyəti barədə danışıblar:

***Məmməd Musayev – Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti:*** – Dayanıqlı inkişaf məqsədlərinin yerinə yetirilməsi üçün kənd təsərrüfatı və ərzaq təminatında özəl sektorun cəlbi çox mühüm amildir. Bildiyiniz kimi, Birləşmiş Millətlər Təşkilatı 2030-cu ilə qədər dayanıqlı inkişaf məqsədləri üçün xüsusi proqram hazırlayıb. Bu, dünyada insanların ərzaqla təmini, yoxsulluğun aradan qaldırılması üçün əhəmiyyətli tədbirdir. Biz də, öz növbəmizdə, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının dəstəyi ilə Azərbaycanda belə bir tədbiri keçirdik. Növbəti tədbirimiz də Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında baş tutdu. Buradakı təşkilatçılıqdan və görülən işlərdən belə bir nəticəyə gəldik ki, bu sahədə muxtar respublikada təqdirəlayiq işlər görülür. Özəl sektorun yerli iqtisadiyyatın inkişafındakı payı isə çox yüksəkdir. Naxçıvanda istehsal olunan məhsullar nəinki respublikamızın bütün bölgələrinə, xarici ölkələrə də ixrac olunur. Bir sözlə, Azərbaycanın qarşıya qoyduğu dayanıqlı inkişaf məqsədlərinin yerinə yetirilməsində Naxçıvan öz töhfəsini verməkdədir.



***Mələk Çakmak – BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri:*** – Gözəl Naxçıvana kənd təsərrüfatı və ərzaq sahələrindəki dayanıqlı inkişaf məqsədlərinə özəl sektorun qoşulması ilə bağlı birgə əməkdaşlıq imkanlarımızı müəyyənləşdirmək üçün gəldik. Regional seminarda kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının daha məhsuldar və məsuliyyətlə yerinə yetirilməsi ilə bağlı çıxışlar oldu.



Hamıya məlumdur ki, kənd təsərrüfatı sosial inkişafda, stabillikdə, kənd yerlərinin tərəqqisində, əhalinin düzgün qidalanmasında, ərzaq çatışmazlığının aradan qaldırılmasında və dəyər zəncir yolu ilə inklüziv yüksəliş baxımından çox əhəmiyyətli bir sektordur. Dayanıqlı inkişaf məqsədləri dedikdə yoxsulluğun azaldılması, düzgün qidalanmanın təmin edilməsi, torpaq, su resurslarının qorunması və onlardan səmərəli şəkildə istifadə olunması, gender bərabərliyinə əməl edilməsi və əməkdaşlıqlar yolu ilə daha faydalı işlər görmək, eyni zamanda məsuliyyətli istehsalçı və istehlakçı ola bilmək nəzərdə tutulur. Kənd təsərrüfatı bütün bu məqsədlərin mərkəzində dayanır. Aqrar sahəni daha da inkişaf etdirərkən məhsuldar torpaqları və su qaynaqlarını qorumağa, itki və tullantıların azaldılmasına birgə nail olmağa çalışacağıq. Ən əsası da inklüziv inkişafa – kiçik fermerlərin maraqları nəzərə alınmaqla onların kiçik və orta sahibkarlığa çevrilməsinə dəstək verəcək mexanizmlərin və aqrar siyasətin inkişaf etdirilməsinə köməklik edərək qida və ərzaq sisteminin daha dayanıqlı olmasına səy göstərəcəyik.

Onu da deyim ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı olaraq Azərbaycan hökuməti ilə əməkdaşlığımız çərçivəsində ötən dövr ərzində bir sıra işlər görülüb. Bunlara heyvandarlığın, toxumçuluğun inkişafı, bölgələrdə gənclərin kənd təsərrüfatı sahələrinə cəlbi, qadın fermerlərin rəqabətə qoşulması, ayrı-ayrı sahələr üzrə bilik və bacarıqlarının artırılmasını qeyd etmək olar. Eyni zamanda təbiətin qorunması, şoran torpaqların bərpası, meşələrin çoxaldılması, balıqçılıq sektorunun inkişafı üçün də müəyyən işlər reallaşdırılıb. Qida sahəsinin Azərbaycanın ehtiyaclarına uyğunlaşdırılması, monitorinqlərin düzgün formada aparılması və bu barədə lazım olan bütün texniki imkanların inkişafı və ölkənin qida standartlarının müəyyən edildiyi Kodeks Alimentarius Milli Komitəsinə daha effektiv şəkildə qoşulması ilə bağlı tədbirlər görülüb. Bütün bu işləri həyata keçirərkən Naxçıvan Muxtar Respublikasından da texniki ekspertlər bizim treninqlərə qoşulurlar. Fikrimcə, bu istiqamətdə əməkdaşlığımızı inkişaf etdirmək məqsədəuyğundur. İşlərimiz, imkanlarımız böyüdüyü üçün bundan sonra əlaqələrimiz daha da möhkəmlənməli, görüşlərimiz mütəmadi xarakter almalıdır.

Düşünürəm ki, muxtar respublikada kənd təsərrüfatı yüksək inkişaf yolundadır. İstərdik ki, Naxçıvanın təbii, saf məhsulları həm ölkənin digər yerlərində, həm də dünyada öz layiqli yerini tapsın. Ümidvaram ki, bu istiqamətdə birgə səylərimiz öz müsbət nəticəsini verəcək. Fürsətdən istifadə edib burada bizə göstərilən yüksək diqqətə, dövlət dəstəyinə görə Ali Məclis Sədrinə dərin minnətdarlığımı bildirirəm.

***Pedro Marselo Arias – BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının iqtisadçı eksperti:*** – Dayanıqlı inkişaf dünyada qlobal ərzaq təminatı məsələlərinin həlli sahəsindəki aktual problemlərdəndir. Ərzaq təminatı təkcə kənd təsərrüfatı demək deyildir. Dayanıqlı inkişaf konsepsiyasına əsasən bu, bütün sahələrdəki təchizatçılar, istehsalçılar, ticarətçilər və istehlakçılar arasındakı münasibətlər deməkdir. Əgər bu münasibətlər kövrək deyil, möhkəmdirsə, onda bütün sistem ünsürləri dayanıqlı inkişafa töhfə vermiş olacaqlar. Bütün bu məsələlərin həlli isə təkcə hökumətlərin üzərinə düşən vəzifə deyildir. Bugünkü seminarımızın məqsədi də ərzaq məhsulları istehsalı zamanı dayanıqlı inkişafa nail ola bilmək üçün özəl sektorun buradakı rolunu bir daha gündəmə gətirməkdir. Çünki müasir dünyada ən həllivacib problemlərdən biri ərzaq təminatında tərəflərin üzərinə düşən vəzifələrin başa düşülməsi, iqtisadiyyat, ekoloji vəziyyət və cəmiyyət qarşısında hər kəsin məsuliyyətinin dərk olunmasıdır. İnkişaf etmiş ölkələrdə bu sarıdan gözəl təcrübə vardır. Azərbaycan da bu sahədə uğurlu əməkdaşlıq üçün yaxşı potensiala malikdir.



Ölkənizdə ilk dəfə olsam da, Naxçıvanda gördüyüm təmiz ekoloji şərait, insan resursları və ciddi idarəetmə bu sahədə vəziyyətin bizim arzu etdiyimizdən də yaxşı olduğunu deməyə əsas verir. Ümidvaram ki, qarşıdakı dövrdə təəssüratlarımız daha da dərin olacaq.

**Nail ƏSGƏROV**
**Tural AĞAYEV**
**Əli CABBAROV**

## Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının XII növbədənkənar konfransı keçirilib



Dekabrın 19-da Ordubad şəhərindəki Mədəniyyət Sarayında keçirilən konfransda rayon təşkilatının konfranslararası dövrdəki fəaliyyəti haqqında Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı sədrinin müavini Eldar Zeynalov məruzə ilə çıxış edib.

Bildirilib ki, yarandığı gündən mürəkkəb bir yol keçmiş partiya artıq ümumxalq partiyasına çevrilib, bu gün özünün yeni inkişaf mərhələsindədir. Ölkə Prezidenti cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin yaratdığı partiyanın Azərbaycanın böyük uğurlar qazanmasındakı fəaliyyətini düzgün istiqamətləndirməklə ümummilli liderin müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbov ulu öndərimiz Heydər Əliyev ideyalarını yorulmaq bilmədən həyata keçirməkdədir. Aparılan siyasət nəticəsində Naxçıvan Muxtar Respublikası da gündən-günə çiçəklənir, möhtəşəm bir diyara çevrilir. Bu inkişaf və tərəqqini Ordubad rayonunda da görmək olar.

Diqqətə çatdırılıb ki, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı ağır, keşməkeşli, mürəkkəb şəraitdə yaranıb, ümummilli liderimiz Heydər Əliyev ideyalarının bərqərar olması üçün müxaliflərin təzyiqinə baxmayaraq, öz mübarizəsini aparıb, vətəndaşların Yeni Azərbaycan Partiyası ətrafında sıx birləşməsinə nail olub, möhkəm təşkilatlanmış bir partiyaya çevrilib.

Qeyd olunub ki, təşkilatın XI konfransından keçən müddət ərzində idarə heyətinin 35 iclası, hər rübdə bir dəfə Şura iclası keçirilib. Ötən dövrdə rayonda Yeni Azərbaycan Partiyası sıralarına 495 yeni üzv qəbul edilib ki, bununla da təşkilat üzvlərinin sayı, ümumilikdə, 6239 nəfərə çatıb. Onlardan 1409-u gənc, 3000-i isə qadındır.

Hesabat məruzəsi ətrafında təşkilatın Gənclər Birliyinin sədri Elvin Məmmədov, Qadınlar Şurasının sədri Könül İsmayılova çıxış ediblər.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov çıxış edərək Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Konfransda Etibar Şəhrud oğlu İsmayılov Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının sədri seçilib, təşkilatın şura üzvləri və nəzarət-təftiş qrupu müəyyənləşib.

Konfransın sonunda təşkilatın ilk şura iclası keçirilib, İdarə heyətinin, Qadınlar Şurasının və Gənclər Birliyinin yeni tərkibi seçilib.

**Abbas SEYİD**

## Festival-müsabiqə başa çatıb



*Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə 29 noyabr tarixdə keçirilmiş ali və orta ixtisas təhsili müəssisələrində fəaliyyət göstərən tələbə teatr studiyaları arasında festival-müsabiqənin yekun tədbiri olub.*

Əvvəlcə festival-müsabiqənin keçirilmə qaydaları haqqında məlumat verilib.

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxışında qeyd edib ki, artıq yekunlaşan festival-müsabiqə Naxçıvanda teatr sənətinin inkişafına növbəti töhfə olacaqdır.

Mədəniyyət naziri qalib olmuş tələbə teatr studiyasının üzvlərini təbrik edərək uğurlar arzulayıb, muxtar respublikada yaradıcı gənclərin formalaşmasına, eləcə də teatr sənətinin yaşadılmasına və inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxış edərək belə layihələrin tələbə gənclərin asudə vaxtının səmərəli təşkili, onlarda bədii zövqün formalaşdırılması, istedadlı gənclərin üzə çıxarılması və tələbələrdə teatr sənətinə maraq yaradılması baxımından əhəmiyyətindən bəhs edib.

Sonra festival-müsabiqənin qalibləri mükafatlandırılıb. Qeyd edək ki, Naxçıvan Musiqi Kollecinin Tələbə Teatr Studiyası 1-ci, Naxçıvan Müəllimlər İnstitutunun Tələbə Teatr Studiyası 2-ci, Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyası 3-cü dərəcəli diploma, "Naxçıvan" Universitetinin və Naxçıvan Dövlət Texniki Kollecinin Tələbə Teatr studiyaları həvəsləndirici diplomlara layiq görülüblər.

Tədbirin bədii hissəsində festival-müsabiqənin qalibi olan Naxçıvan Musiqi Kollecinin Tələbə Teatr Studiyası hazırladığı tamaşanı təqdim edib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Gömrük orqanları tərəfindən saxlanılmış mallar barəsində müvafiq tədbirlər görülür

***Gömrük qanunvericiliyi tələblərinin pozulması ilə gətirilməsinə cəhd göstərilən malların aidiyyəti qurumlara təhvil verilməsi və yararsız olanlarının məhv edilməsi həyata keçirilib.***

Dekabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Gömrük Komitəsi nümayəndələrindən ibarət birgə komissiya gömrük orqanları tərəfindən saxlanılmış mallara baxış keçirib.

Gömrük qanunvericiliyinin tələblərinin pozulması hallarına qarşı mübarizə tədbirləri çərçivəsində saxlanılmış ümumi çəkisi 3129 kiloqram yuyucu və təmizləyici vasitələr, 427 közərmə lampası, 57 litr zeytun yağı, 42 qaz pilətəsi və qaz sobası, 36 geyim əşyası, 6 xalça, 14 avtomobil şini, 22 kiloqram ehtiyat hissə, 2 alışqan qazı aktlaşdırılaraq Əlahiddə Ümumqoşun Orduya təhvil verilib.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına təhvil verilən mallar 2077 kiloqram yuyucu və təmizləyici vasitələrdən, 881 şüşə qabdan, 650 kiloqram gipsdən, 108 kiloqram dəmir profil və plastik borudan, 60 kiloqram boyadan, 38 litr zeytun yağından, 20 kiloqram undan, 10 adda, ümumilikdə, 18 müxtəlif ev əşyasından, 5 alışqan qazı və 2 motosiklet şinindən ibarət olub. 1 pnevmatik tapança və 98 tapança patronu, 1 TİR silahı və 794 TİR gülləsi patronu, 117 ov gülləsi patronu, 3 silah hissəsi, 26 elektroşok, 14 gözyaşardıcı qaz, 40 ov bıçağı və xəncər, 7 dəyənək, 3 dəmir qandal Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə, 13 min 918 müxtəlif dərman preparatları, 900 tibbi ləvazimat, 250 kiloqram vitaminli yem, 36 kiloqram baytarlıq dərmanı, 25 kiloqram arpa, 85 kiloqram PVC xammalı, 10 balıqçılıq ləvazimatı, 9 velosiped şini, 2 dron, 1 qaz sayğacı aidiyyəti üzrə müvafiq qurumlara təhvil verilib.

Gömrük orqanları tərəfindən istehlakçıların hüquqlarının, əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması məqsədilə saxlanılan və yararsız olan mallar isə yandırma üsulu ilə məhv edilib.

651 kiloqram xəmir və şirniyyat qatqısı, 8 adda ümumi çəkisi 136 kiloqram ərzaq məhsulu, 106 kiloqram ədviyyat, 24 kiloqram texniki duz, 14 kiloqram arıqlama kokteyli, 8 kiloqram protein keyfiyyəti standartlara cavab verməndiyindən, 154 qutu ətir və bəzək ləvazimatları, 321 kiloqram istifadə olunmuş geyim və 8 ev əşyası yararsız olduğundan gömrük orqanları tərəfindən saxlanılıb. Həmin məhsullar da daxil olmaqla, 14 boya, müxtəlif spirtli içki markalarına aid 192 etiket və 36 şüşə qab saxta olduğundan, 4945 pirotexniki vasitə idxalına xüsusi icazə olmadığından, 113 qaz pilətəsi standartlara uyğun gəlmədiyindən, 27 beşbarmaq dövriyyəsi qadağan edildiyindən məhvinə qərar verilib.

Milli mentalitetimizə zidd olan və dini dəyərlərimizlə uzlaşmayan vasitələr, o cümlədən gömrük qanunvericiliyinin tələbləri pozulmaqla gətirilən 6 adda 139 ədəd digər mallar da məhv edilib.

Muxtar respublika gömrük orqanları tərəfindən gömrük qanunvericiliyinin tələblərinin pozulması hallarına qarşı mübarizə bundan sonra da davam etdiriləcək, qanunvericilik çərçivəsində müvafiq tədbirlərin görülməsi təmin olunacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

*Xalq təqvimi*

## Qışın qarşılandığı çillə gecəsi

**İlin son fəsli olan qış təsərrüfat işlərində mühüm rol oynamasa da, xalq etiqadlarında, adət və ənənələrində, inamlarda ona aid zəngin materiallara rast gəlirik. Qışın əsas atributlarından biri qardır. Qar bərəkət, qarşıdakı yeni ilin bolluğu və məhsulu deməkdir. Payız əkinlərinin qalın qar ilə örtülməsi onu şaxtadan qorumaq, yazda bol su ilə təmin etməkdir. Bunu aşağıdakı folklor nümunəsində də görmək olar:**

*Böyük çillə, nar çillə,*
*Ağ gül üstə qar çillə,*
*Taxıllara yorğan ol,*
*Bağçalara bar çillə.*

Qar örtüyünün insanlar üçün müsbət xüsusiyyətli olması "Qar olmasa, bar olmaz", "Qar ili var ili" kimi atalar sözlərində də əks olunmuşdur.

Müşahidələrə görə, qış fəslində gecələr ayaz, gündüzlər dumanlı, buludlu olarsa, bu, ilin yaxşı keçməyəcəyinə işarədir. Əksinə, qışın ayazlı gündüzləri, buludlu, dumanlı gecələri isə ilin xoş keçib, insanlar üçün faydalı olacağı deməkdir.

Bölgəmizdə qış nə dərəcədə sərt keçsə də, xalqımız onun gəlişini bayram kimi qarşılayıb bununla bağlı müxtəlif adətlər, inam və mərasimlərə əməl edirlər. Unutmayaq ki, ancaq qışın və yazın qarşılanması təntənə ilə keçirilir. Başqa sözlə desək, ulularımız qışı xoş qarşıladıqları kimi onu təntənəli şəkildə də yola salırlar. İlboyu əmək fəaliyyəti ilə məşğul olan zəhmətkeş insanlar qışda yetərincə istirahət edərlər. Ümumiyyətlə, xalqımız qışa çətin gün kimi baxsa da, o həm də əyləncə, nağıl, aşıq məclisləri, qadınların toxuculuq işləri ilə də yadda qalardı. Qış görüləcək işlərin az olması səbəbi ilə bir dinlənmə və əyləncə mövsümüdür.

Qış fəsli xalq təqviminə uyğun olaraq çillə adı ilə üç yerə bölünüb. Böyük çillə 40 gün (21 dekabr – 30 yanvar), kiçik çillə 20 gün (31 yanvar – 20 fevral), ala çillə və ya ala çolpav (boz ay da deyilir) isə bir ay (20 fevral – 20 mart) olur.



Çillə bayramı, Çillə gecəsi payız fəslinin sonu, qış girən günü, yəni dekabr ayının 20-si gecəsi qeyd edilir. "Çillə gecəsi" ilin ən uzun və qışın başlanğıc gecəsidir. Mənbələrdə qeyd edilir ki, çillə "çehil" sözündəndir, mənası "qırx" deməkdir. Xalq arasında ağırlıq anlamında başa düşülür. Çillə dərd, kəramət, xəstəlik mənasında qəbul edildiyindən onun girməsi dərdin, çətinliyin gəldiyinə işarədir. Çillə bayramının erkən çağlar "sırağan" yaxud "çırağan" olduğu da göstərilib. Qeyd edək ki, doğumla bağlı inam və adətlərdə "çilləli", "çillə kəsmək", "çillə basdı" kimi sözlərə də rast gəlirik ki, bu da müəyyən xəstəliklər, qarın yağması ilə yaranan çətinliklərlə bağlıdır.

Çillə bayramını xalqımız xüsusi qeyd edər, bu bayrama hələ bir neçə gün əvvəldən hazırlıq görərdilər. Bayram günü, demək olar ki, bütün evlərdə "çillə qarpızı" kəsilərdi. Qarpız çillə gecəsinin ən gözəl payı hesab olunur. Əksər ailələr belə qarpızları əvvəlcədən alıb saxlayardılar. Toplanmış çöl materiallarına əsaslanaraq demək olar ki, Naxçıvanın Araz boyu kəndlərinin əksəriyyətində çox da böyük olmayan, qalınqabıqlı xüsusi qarpız növü əkilər, belə qarpızları uzun müddət, hətta Novruza qədər saxlamaq olardı. Çillə üçün saxlanılacaq qarpız tam yetişməmiş və saplaqlı olsa, daha yaxşı qalar. Xarab olmasın deyə, onu ot və ya samanın içərisində saxlayırdılar.

"Çillə qarpızı"na bolluq, bərəkət rəmzi kimi baxılır. Etnoqrafik çöl materiallarına görə, Çillə gecəsində qarpız kəsmək qışı xoş qarşılamaqla bərabər, ondan qorxmamağa işarədir. Digər məlumata görə, çillədə qarpız kəsəndə deyərlər ki, ay qarpız, mən səni necə kəsirəmsə, çilləni də belə tez kəsim, yəni qışa, şaxtaya yenilməyim, onu dərdsiz, bəlasız başa vurum. Bəzi rayonlardan (Ordubad, Şərur) yaşlı insanların verdiyi məlumata görə, çillədə qarpız kəsilir ki, günümüz qırmızı, yəni Günəşli olsun. Həqiqətən, bu inanc onunla əlaqədardır ki, qarpızın içərisinin qırmızı rəngdə olması Günəşin rəmzi kimi sayıla bilər ki, bu da istiliyi çağırmaq anlamı ilə bağlıdır.

"Çillə qarpızı" kəsilən vaxt xalq arasında niyyətetmə adəti də mövcuddur. Niyyət zamanı qarpızın baş tərəfini kəsib, dörd yerə ayırıb atırlar. Əgər ikisi eyni rəngdə – ağ və ya göy olarsa, niyyət qəbul edilmiş hesab olunar. Bu da belə bir fikir söyləməyə əsas verir ki, bəlkə də, insanların çillə gecəsi qarpızın qabığının bir hissəsini dörd yerə bölüb niyyət tutub atması dörd fəsillə, atılan qarpız qabıqlarının rənglərinə uyğun (ağ və göy) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə əlaqədardır.

Bundan başqa, qarpız kəsib yeddi evə pay göndərilir. Çillə bayramı günü nişanlı qızların, təzə gəlinlərin bayram görüşünə (Çillə bayramına) gedirlər. Bayramlıqlar içərisində "Çillə qarpızı" xüsusi yer tutur.

*Bu qarpız çilə qarpız,*
*Düşübdür dilə qarpız,*
*Yığılıb xonçalara,*
*Gedir yar gilə qarpız.*

Şərur rayonunun bəzi kəndlərindən toplanmış materiallara görə, nişanlı qızlara qarpız aparanda onun yanına bıçaq da qoyardılar. Qarpız aparılan bıçaqla kəsilər və sonra yenidən oğlan evinə qaytarılardı.

Ordubad bölgəsində isə həmin gün evdə un yeməkləri (xəşil, tərək, quymaq), hədik bişirilər, qovurğa qovurular, qovut çəkilərdi. Etnoqrafik çöl materiallarına əsaslanaraq demək olar ki, çillədə qarpız olmadıqda belə, başqa bir meyvə kəsilməlidir. Xalq arasında olan inama görə, kim bu gecə çoxlu meyvə yesə, o, bütün qışı xəstələnməz. Ordubad bölgəsinin bəzi kəndlərində adətlərə əsasən çillədə qarpız yoxdursa, ürəklər sərin olsun deyə, qatıq yeyərdilər. Bu adəti nəzərə alsaq, belə bir nəticəyə gəlmək olar ki, bunların hər ikisi sərinləşdirici əlamətlərə malikdir. Bunların yeyilməsi qışın soyuğuna qarşı çıxmaq, ona hazır olmaq anlamına gəlir. Həmin gecə süfrəyə "Q" hərfi ilə başlanan nemətlər məsələn: qarpız, qovun, qatıq, qovurğa, qaysava, qovurma, qovut qoymaq adəti də mövcuddur.

Etnoqrafik çöl materiallarına görə, xalq təqviminə uyğun olaraq böyük çillənin birinci ongünlüyü (dekabr ayı) "qarı qatıldı küfləyə", yanvar ayının əvvəli isə "qarı boğan" adlanır. Bundan əlavə, xalq təqvimində böyük çillənin sonlarına "qurdun insanın ətinə yerikləyən dövrü" də deyilərdi. Bu da onunla əlaqəlidir ki, ilin bu dövründə qurd (canavar) ac qaldığı üçün insanlara da hücum edə bilər. Qışın bərk şaxtalı günlərinə həm də "Qışın qulun (atın balası) salması" dövrü deyilir.

Bir məsələni də vurğulamaq istərdik ki, bəzilərinin bu bayramı zərdüştlüklə əlaqələndirməsi tamamilə yanlış bir məsələdir. Çillə bayramı məhz xalq təqvimi ilə bağlı keçirilən bayramlardan biridir.

Qışla, təqvim adət və ənənələri ilə bağlı etnoqrafik-çöl materialları toplayarkən bölgədə əhali arasında bilinən qar adlarını da qeydə almışıq. Bunlar quşbaşı, çobanyarması, kəpək, qaryeyən, püsək və digərləridir.

Sonda demək olar ki, Naxçıvanda qışla bağlı təqvim adətləri tarixin ilkin dövrlərində formalaşıb, bir sıra xüsusiyyətlərinə görə digər türk xalqları ilə ortaq cəhətlərə malikdir. Və çox sevindiricidir ki, Çillə bayramı bu gün də muxtar respublikamızın bölgələrində təntənəli şəkildə qeyd olunur.

**Asəf ORUCOV**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

Parlament seçkiləri – 2020

# Seçki marafonu

**9 fevral 2020-ci il Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə növbədənkənar seçkilər günüdür.**

*Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər muxtar respublikada 7 seçki dairəsi üzrə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər isə 45 seçki dairəsi üzrə keçiriləcəkdir.*

**Seçkilər zamanı namizədlərin irəli sürülməsi**

Namizədlərin öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər və siyasi partiyalar tərəfindən irəli sürülməsi qaydaları Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53-54-cü və 146-cı maddələri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər zamanı isə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 49-50-ci maddələri ilə tənzimlənir.

**Namizədlərin öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülməsi**

▪ Namizəd öz təşəbbüsü ilə və ya aktiv seçki hüququ olan seçicilər tərəfindən irəli sürülə bilər, o şərtlə ki, ərazisində namizədin dəstəklənməsi üçün zəruri olan imzaların yığıldığı və namizədin qeydə alınmasının nəzərdə tutulduğu müvafiq seçki komissiyasına bu barədə bildiriş göndərilsin.

▪ Namizəd və ya namizədi irəli sürən seçicilərin təşəbbüs qrupu öz təşəbbüsü barədə müvafiq seçki komissiyasına yazılı bildiriş verir. Bildirişdə namizədi irəli sürən hər bir təşəbbüsçünün və namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, bundan başqa, irəli sürülən namizədin əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) göstərilməlidir.

▪ Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53.2-ci, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər zamanı isə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 49.2-ci maddələrində göstərilən bildirişlə birlikdə namizədin seçkili dövlət və ya bələdiyyə orqanında seçkili vəzifəyə seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyinə dair yazılı öhdəliyi olan ərizə də göndərilir. Bu ərizə də onun tərcümeyi-halına aid məlumatlar (soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü)) göstərilir.

Namizədlərin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı göstərilməlidir. Namizədin ərizəsində Azərbaycan Respublikasının vətəndaşlığı haqqında məlumatla yanaşı, xarici ölkə vətəndaşlığının və başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması da göstərilməlidir.

▪ Namizəd öz ərizəsinə siyasi partiyaya mənsubiyyəti barədə təsdiq olunan sənəd əsasında məlumatları daxil edə bilər. Belə halda namizəd mənsub olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz sıralarından xaric edibsə və müvafiq seçki komissiyasına bildiriş göndəribsə, həmin bildiriş alındıqdan sonra həmin namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz.

▪ Müvafiq seçki komissiyası Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53.4-cü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər zamanı isə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 49.4-cü maddələrinin tələblərinə uyğun olaraq təqdim edilmiş sənədlərin alınması barədə namizədə, seçicilərin təşəbbüs qrupuna yazılı məlumat verməlidir.

▪ Müvafiq seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır və namizədə, onun səlahiyyətli nümayəndəsinə namizədliyin müvafiq seçki dairələri üzrə irəli sürülməsini təsdiq edən qərarı, həmçinin seçicilərin imzalarının toplanması üçün imza vərəqələrini təqdim edir.

**Müvafiq seçki komissiyası təqdim olunmuş sənədlərin qəbul edilməsindən imtina edə bilməz. İmza vərəqələrini götürən namizəd və ya onun səlahiyyətli nümayəndəsi hər imza vərəqəsinin aşağı künc hissəsində imza qoyur.**

**Namizədlərin siyasi partiyalar tərəfindən irəli sürülməsi**

▪ Namizədin irəli sürülməsi haqqında qərarı siyasi partiya öz nizamnaməsinə uyğun olaraq qəbul edir. Belə qərar kollegial qaydada səsvermə yolu ilə qəbul edilməlidir.

▪ Namizədin irəli sürülməsi barədə siyasi partiyanın qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar göstərilir:

- iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı;
- namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri;
- qərarın qəbul edilməsi tarixi.

▪ Siyasi partiya partiyanın üzvü olmayan şəxsləri namizəd kimi irəli sürə bilər.

▪ Namizədin adı ilə birlikdə siyasi partiyanın səlahiyyətli nümayəndəsi müvafiq seçki komissiyasına aşağıdakı sənədləri də təqdim edir:

- siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surəti;
- siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;
- namizədin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclaslarının) qərarı və müvafiq iclasın protokolu;
- siyasi partiyanın səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələrini.

▪ Müvafiq seçki dairələri üzrə irəli sürülmüş namizədlərə aid sənədlər müvafiq seçki komissiyasına siyasi partiyaların səlahiyyətli nümayəndələri tərəfindən təqdim edilir. Namizədlərin adları Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada təqdim edilir, çap üsulu ilə və ya maşınla oxunmasına imkan verən başqa üsulla tərtib olunur.

▪ Siyasi partiyanın səlahiyyətli nümayəndəsi Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı Azərbaycan Respublikası Seçki Məcəlləsinin 54.1 və 54.7-ci, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər zamanı isə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 50.1 və 50.7-ci maddələrində göstərilən sənədlərlə birlikdə namizədin seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam veriləcəyi barədə öhdəliyi də göstərilməklə, namizədliyinin irəli sürülməsinə razılıq verməsi barədə ərizəsini də təqdim edir. Bu ərizədə namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri, o cümlədən tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), namizədin arzusu ilə siyasi partiyaya mənsubluğu göstərilir. Namizədlərin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa, xarici ölkənin qanununun adı göstərilməlidir. Ərizədə namizədin vətəndaşlığı və ya xarici ölkə vətəndaşlığına mənsubluğu, başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması haqqında məlumatlar daxil edilir.

▪ Seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır, müvafiq seçki dairəsi üzrə irəli sürülmüş namizədin təsdiq olunub-olunmaması barədə əsaslandırılmış qərar qəbul edir və siyasi partiyanın səlahiyyətli nümayəndəsinə bu barədə məlumat verir. Müvafiq seçki komissiyası təqdim olunmuş sənədlərin qəbul edilməsindən imtina edə bilməz. Seçki komissiyası namizədin təsdiq olunması barədə qərar qəbul etdikdə, həmin qərarı və seçicilərin imzalarının toplanması üçün imza vərəqələrini siyasi partiyanın səlahiyyətli nümayəndəsinə təqdim edir. İmza vərəqələrini götürən səlahiyyətli nümayəndə hər imza vərəqəsinin aşağı künc hissəsində imza qoyur.

**İrəli sürülmüş namizədin təsdiq olunmasından imtina edilməsi üçün əsas yalnız seçki qanunvericiliyində göstərilən sənədlərin lazımi qaydada rəsmiləşdirilməməsi və ya namizədin irəli sürülməsinin seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydasının pozulması ola bilər. Səhvlər və pozuntular müvafiq sənədlərdə siyasi partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən düzəlişlər edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası namizədi seçki qanunvericiliyində göstərilən müddətdə bu barədə xəbərdar edir, müvafiq düzəlişlər edildikdən sonra namizədin irəli sürülməsini təsdiqləyir.**

▪ Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyaları irəli sürülmüş müvafiq namizədlər barədə məlumat alınmasına şərait yaratmalıdırlar.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Elektron sənəd dövriyyəsi və kargüzarlıq xidmətinə dair maarifləndirici tədbir



*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində Elektron sənəd dövriyyəsi və kargüzarlıq xidmətinə dair maarifləndirici tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva səhiyyə müəssisələrində kargüzarlığın aparılması istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, Elektron sənəd dövriyyəsinin tətbiqi sənədlərin hazırlanması və emalına sərf olunan əməyin və vaxtın azalmasını, idarəçilikdə icra intizamının yüksəldilməsini və nəzarət mexanizminin sadələşməsini, dövlət və özünüidarəetmə orqanlarının fəaliyyəti haqqındakı informasiya və xidmətlərə əlyetərliliyi, tabeçiliyində olan və digər təşkilatlarla əlaqələrin sürətləndirilməsini təmin etməyə imkan verir.

Bu sahədə nazirlikdə görülən işlər nəticəsində sənədlərin əldə göndərilməsi minimuma endirilib, həm kağız sərfiyyatını azaltmaq, həm də zamana qənaət etmək üçün sənədlərin elektron dövriyyəsi təşkil olunub.

Nazir müavini sənədlərin hazırlanması, fayl şəklində bazada saxlanılması, müəssisə daxilində sənəd hərəkətinin, axtarış sistemi təhlükəsizliyinin təmin edilməsi, təşkilata daxil olan və göndərilən sənədlərin sistemə yerləşdirilməsi, sənədin əslinin elektron formata salınıb sistemin yaddaşında saxlanılması, sənədin rəhbərliyə yönləndirilməsi və kargüzarlıq işlərindəki digər mühüm məsələlərin düzgün icrasının vacibliyindən danışıb. Bu sahədə maarifləndirici tədbirlərin əhəmiyyəti qeyd edilib.

Sonra nazirliyin ümumi işlər sektorunun müdiri Sərxan Əkbərov elektron sənəd dövriyyəsi və kargüzarlıq xidmətinə dair qaydalar barədə məlumat verib. Səhiyyə müəssisələrində elektron sənəd dövriyyəsinə nəzarətin gücləndirilməsinin və bu işin mükəmməl həyata keçirilməsinin vətəndaşlara göstərilən xidmətlərin daha effektiv formada təşkili məqsədi daşıdığını vurğulayıb.

Tədbirdə yeni tətbiq olunan kargüzarlıq qaydaları izah edilib, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## "Məmməd Səid Ordubadi: Şərq və Qərb" monoqrafiyasının təqdimatı olub




***AMEA Naxçıvan Bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılovanın "Məmməd Səid Ordubadi: Şərq və Qərb" monoqrafiyasının təqdimatı keçirilib.***

Tədbiri institutun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev açaraq bildirib ki, Latviyada Azərbaycan və rus dillərində nəşr olunan kitab milli ədəbiyyatımızın, söz sənətimizin dünyada təbliğ edilməsi baxımından əhəmiyyətlidir.

Qeyd olunub ki, aktual bir mövzuya həsr edilən nəşrdə müəllif Məmməd Səid Ordubadinin həyat və yaradıcılığına ətraflı nəzər salıb, onun romanlarındakı Avropa mühitinin əksinin, habelə Şərq və Qərbin müqayisəsinin elmi-nəzəri təhlilini aparıb. Gənc tədqiqatçı monoqrafiyada bu ədəbi əsərlərdəki Şərq-Qərb dialoqunu, Şərqin ədəbi, mədəni dəyərlərinin Qərb tərəfindən mənimsənilməsini yığcam şəkildə işıqlandırıb.

İnstitutun elmi işlər üzrə direktor müavini, professor Hüseyn Həşimlinin "Məmməd Səid Ordubadi irsinə Şərq və Qərb konteksindən baxış" mövzusunda məruzəsi dinlənilib.

Sonra bölmənin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov çıxış edərək yeni nəşrlə bağlı fikirlərini bölüşüb.

Sonda yeni nəşrin müəllifi Nərgiz İsmayılova tədbir iştirakçılarına öz minnətdarlığını bildirib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 866